# Masallıda "2 fevral - Azərbaycan Gəncləri günü" qeyd edilib

**1 fevral 2020-ci il tarixdə Masallı rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə şəhərimizin "İlqar Plaza" şadlıq sarayında "2 fevral - Azərbaycan Gəncləri günü" münasibətilə tədbir keçirilib.**

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsinin önünə gül dəstələri qoyublar. Sonra video-çarx nümayiş olunub.



### *Dövlət başçısı gənclərlə daim maraqlanır*

Tədbirdə iştirak edən Masallı Rayon İcra Hakimiyyətinin başçısı cənab Şahin Məmmədov gəncləri əlamətdar gün münasibətilə təbrik edərək, onlara xoşbəxt və firavan gənclik, sağlam həyat və uğurlu gələcək arzulayıb. İcra basçısı bildirib ki, ulu öndər Heydər Əliyev gənclər siyasətinə, onların təhsilinə və inkişafına, dövlət idarəçiliyinə gənc kadrların cəlb olunmasına daima xüsusi diqqət və qayğı göstərib. 1997-ci ildə imzaladığı Sərəncamla MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk olaraq məhz Azərbaycanda Gənclər Gününün təsis olunması gənc nəslə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Bu gün Prezident İlham Əliyev ulu öndərin gənclər siyasətinə



sadiqliyini öz qərarları ilə təsdiqləməkdədir. Dövlət başçısı gənclərimizi qayğılandıran məsələlərlə daim maraqlanır, onların problemlərinin həlli istiqamətində işlər görür, bölgələrdə gənclər üçün lazımi infrastrukturun və gənclər təşkilatlarının inkişafına əlverişli şəraitin yaradılması istiqamətində mühüm addımlar atır, onların sosial məişət problemlərinə xüsusi qayğı və diqqətlə yanaşılır.

**RİH başçısı vurğulayıb ki, 2020-ci ilin "Könüllülər ili" elan olunması Prezident İlham Əliyevin Azərbaycan gəncliyinə göstərdiyi xüsusi diqqətin təzahürüdür. Könüllülük hərəkatının daha da artması cəmiyyətdə xeyirxahlığı, yeni davranış qaydalarını təbliğ edəcək və gənclərin inkişafına böyük töhvələr verəcəkdir. -Bu gün həm də ona görə əlamətdardır ki, keçirilən onlayn səsverməyə əsasən Masallı 2020-ci ilin "Gənclər Paytaxtı" seçilib. Bu münasibətlə sizi təbrik edirəm, - deyə RİH başçısı tədbir iştirakçılarına müraciət edib.**

Rayon gənclər və idman idarəsinin rəisi Camal Manafov "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası qanununun müvafiq bəndləri," Azərbaycan gəncliyi 2017-2021-ci illər " Dövlət Proqramından danışaraq, ölkədə gənc nəslin problemlərinin kompleks həlli, onların cəmiyyətdə layiqli təbəqə kimi iştirakı üçün dövlət səviyyəsində bütün lazımi işlərin görüldüyü diqqətə çatdırıb. İdarə rəisi Prezident cənab İlham Əliyevin təsdiq etdiyi Dövlət Proqramının rayonumuzda icra olunması istiqamətində mühüm işlər görüldüyünü, rayon rəhbərinin sahibkarlığın inkişafına göstərdiyi diqqət və qayğıdan danışıb. Bildirib ki, rayon mərkəzində geniş abadlıq-quruculuq işləri, dövlət layihələri həyata keçirilir və 2019-cu ildə 703 gənc işlə təmin olunmuşdur. C.Manafov ötən il ərzində gənclər və idman sahəsində əldə olunan naliyyətlər barədə geniş məlumat verib.

Gənc müəllim Könül Qənbərova, taekvondo idman növü üzrə yeniyetmə qızlar arasında iki dəfə Azərbaycan çempionu və beynəlxalq turnirlər qalibi Sevda Əzizova, Qarabağ şəhidi Heybət Hüseynovun övladı Ülvi, Azərbaycan Tibb Universitetinin birinci kurs tələbəsi Sura Seyfullayeva, Masallı Dövlət Regional Kollecinin tələbəsi, könüllü Uğur Ağazadə gənclərə işlərində uğurlar arzulayıblar, onları bütün sahələrdə fəal olmağa çağırıblar.

Rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir sıra gənclərə Masallı Rayon İcra Hakimiyyətinin, gənclər və idman idarəsinin fəxri fərman və hədiyyələri təqdim olunub. Tədbir gənc incəsənət ustalarının ifasında maraqlı konsert proqramı ilə davam edib.

Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Gəncləri Günü münasibətilə istedadlı və yaradıcı gənclərin mükafatlandırılması mərasimi keçirilib.

Tədbirdə 2019-cu ildə yüksək fəallığı ilə seçilən gənclər və gənclər təşkilatları mükafatlandırılıb.

Tədbirdə Azərbaycan Respublikası Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, gənclər və idman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, MOK baş katibinin müavini Azər Əliyev, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, dövlət və hökumət rəsmiləri, universitetlərin rektorları və gənclər təşkilatlarının nümayəndələri iştirak ediblər.Əvvəlcə 2019-cu ildə Azərbaycanda gənclər sahəsində həyata keçirilən tədbirləri, həmçinin ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin gənclərlə bağlı fikirlərini əks etdirən videoçarx yayımlanıb.

**Mərasimdə Azərbaycanda dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsi nəticəsində əldə olunan uğurlar, bu sahədə reallaşdırılan proqram, strategiya və layihələr, gənclərimiz üçün yaradılan şərait barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, 1997-ci ildə ulu öndər Heydər Əliyevin Sərəncamı ilə 2 fevral - Azərbaycan Gəncləri Günü elan edilib. MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk olaraq məhz Azərbaycanda Gənclər Gününün təsis olunması gənc nəslə göstərilən diqqət və qayğının bariz nümunəsidir.**

### *Məlum olduğu kimi*

Masallı rayonu 40,3 faiz səs toplayaraq 2020-ci ilin "Gənclər Paytaxtı" seçilib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, səsvermədə Azərbaycanın 16 şəhər və rayonu iştirak edib. Builki səsvermə iki region Masallı və Lənkəran arasında gedən gərgin mübarizə ilə yadda qalıb. Belə ki, sesvermənin davam etdiyi yeddi gün ərzində Lənkəran rayonu ön sıralarda yer almaq üçün mübarizə aparıb. Lakin səsvermənin ilk günlərində Masallı rayonu birinci sıraya yüksəlib və sonadək liderlik mövqeyini əldən verməyib. Nəticədə 40,3 faiz səs toplayan Masallı Lənkəran rayonunu (23,4 faiz) geridə qoyaraq "Gənclər Paytaxtı 2020" adına layiq görülüb.

Xatırladaq ki, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə 2012-ci ildən "Gənclər Paytaxtı" internet müsabiqəsi uğurla davam edir. Bu layihə "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramına müvafiq olaraq müsabiqə yolu ilə həyata keçirilir. Dövlət Proqramının əhatə etdiyi dövrdə hər il ölkənin bir rayon və ya şəhəri Azərbaycanın "Gənclər Paytaxtı" elan edilir. Bu il yanvarın 24-dən start götürmüş müsabiqə yanvarın 30-da başa çatıb.

**Hər il olduğu kimi, bu il də səsvermə www.genclerpaytaxti.az saytı vasitəsilə həyata keçirilib. Ümumilikdə sayta 3 milyon 602 min 395 nəfər daxil olub ki, onlardan da 90 min 849 nəfəri bu ilin payına düşür.**

Hər il "Gənclər Paytaxtı" müsabiqəsinin qalibi olmuş şəhərin və ya rayonun adı Gənclər və İdman Nazirliyinin təşkilatçılığı 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə keçirilən tədbirdə rəsmi qaydada açıqlanır və paytaxtın "Rəmzi açarı" şəhərin rəsmi nümayəndəsinə təqdim olunur. Fevralın 2-də Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə

### *Həmin tarixdən başlayaraq,*

Azərbaycan Gəncləri Günü respublikamızda geniş qeyd olunur. Gənclər və İdman Nazirliyi tərəfindən hər il bu əlamətdar gün münasibətilə müxtəlif tədbirlər keçirilir ki, istedadlı və yaradıcı gənclərin mükafatlandırılması da məhz belə tədbirlərdəndir. Gənclər və idman naziri Azad Rəhimov tədbirdə çıxış edərək ölkəmizdə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətindən danışıb. Bildirib ki, 23 ildir gənclərimiz ulu öndər Heydər Əliyevin təsis etdiyi Azərbaycan Gəncləri Gününü təntənəli şəkildə qeyd edirlər. Bu dövr yaddaşlarda Azərbaycan dövləti tərəfindən gənclərə göstərilən yüksək diqqət və qayğı illəri kimi qalıb. Nazir ötən il ölkəmizin, o cümlədən gənclərimizin həyatında uğurlu il olduğunu və bir çox nailiyyətlərlə yadda qaldığını vurğulayıb. Mərasimdə Masallı şəhərinin 2020-ci il üçün Azərbaycanın "Gənclər paytaxtı" seçildiyi rəsmən elan edilib. Bildirilib ki, Masallı "www.genclerpaytaxti.az"saytında keçirilmiş onlayn səsvermənin qalibi olub. "Gənclər paytaxtı"nın rəmzi açarı Masallı Rayon Gənclər və İdman İdarəsinin rəisi Camal Manafoa təqdim edilib. Sonra Masallı şəhəri barədə videoçarx nümayiş olunub.

**Tədbir bədii hissə ilə davam edib.**

**Əlihüseyn Şükürov**